**HAQQIM QARABAĞ**

A yurdum, a yuvam, haqqım Qarabağ,
A köçkün, didərgin, qaçqın Qarabağ.
Bəxtimə dərd adlı daşqın, Qarabağ,
Bitsin əsir ömrü sürməyin daha.

Daşı ətəyindən töksün inadlar,
Gözündən pərdəni söksün inadlar.
Daha cilovunu çəksin inadlar,
Mən də az yanılıb büdrəyim daha,
Bitsin əsir ömrü sürməyin daha.

Ağrıdan, əzabdan yordum özümü,
Sındırdım özümü, qırdım özümü.
Mən çox arsızlığa vurdum özümü,
İndi "qisas" deyib kükrəyim daha,
Bitsin əsir ömrü sürməyin daha.

Elə için-için xiffətim – oyaq,
Səbrim yumruqlanıb, hiddətim – oyaq.
Xainə, düşmənə nifrətim – oyaq,
Ömrü qələbəyə kökləyim daha,
Bitsin, əsir ömrü sürməyin daha.

Dırnağım, dişimlə qaytarım səni,
Sözümlə, işimlə qaytarım səni.
Ulu keçmişimlə qaytarım səni,
Sabahın üstündə titrəyim daha,
Bitsin əsir ömrü sürməyin daha.

A yurdum, a yuvam, haqqım Qarabağ,
A köçkün, didərgin, qaçqın Qarabağ.
Bəxtimdə dərd adlı daşqın, Qarabağ,
Bitsin əsir ömrü sürməyin daha.

**2005**



Füruzə MƏMMƏDLİ

